# Ekoloji təmiz nəqliyyat infrastrukturunun yaradılması təşəbbüsləri



*Qlobal iqlim böhranı dayanıqlı nəqliyyat sisteminin yaradılmasını da zəruri edir. Qeyd edək ki, dünya üzrə karbon qazı emissiyasının 24 faizi nəqliyyat sisteminin payına düşür. Ona görə də nəqliyyatın dekarbonizasiyası COP-un əsas diqqət mərkəzində dayanan məsələlərdən biridir.*




Nəqliyyat vasitələrinin ənənəvi yanacaqdan ekoloji təmiz enerjiyə keçidində dövlətlər öz təcrübə və texnoloji imkanlarını bölüşür, bir-birinə yardım edirlər. COP29 çərçivəsində "Azərbaycan Dəmir Yolları" QSC (ADY) və Beynəlxalq Dəmir Yolları İttifaqının (UIC) birgə təşkilatçılığı ilə keçirilən "Nəqliyyat dəhlizləri ilə dayanıqlı gələcəyə doğru: İqlim siyasətində dəmir yolları" adlı tədbirdə nəqliyyat, həmçinin dəmiryol şəbəkəsinin karbon emissiyasının azaldılması təşəbbüsü irəli sürülüb. ADY ilə UIC arasında imzalanan "Dəmir yollarının iqlim öhdəliyi" sənədi isə dövlətimizin qlobal iqlim çağırışlarından irəli gələn həll yollarında fəal iştirakını nəzərdə tutur.

Dəmir yolu karbon emissiyalarının azaldılması və təmiz enerjiyə keçiddə ən mühüm nəqliyyat sektorudur. Dəmir yolu digər nəqliyyat vasitələrilə müqayisədə xeyli az karbon emissiya edir və ekoloji təmiz nəqliyyat vasitəsi hesab olunur. Belə ki, sərnişin qatarı hər kilometrə 14 qram/mol karbon buraxdığı halda, digər nəqliyyat növləri bundan 10-20 dəfə çox karbon qazı emissiya edir. Bundan əlavə, dəmir yolu infrastrukturunun inkişafı nəqliyyat sıxlığını azaltmağa kömək edir ki, bu da karbon qazı tullantılarının azaldılmasına gətirib çıxarır.

Ekoloji təmiz nəqliyyat infrastrukturunun yaradılması təşəbbüsləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin də gündəliyində əsas yer tutur. Dövlətimiz 2023-cü ildə BMT-nin Qlobal Sazişinə üzv olaraq bu istiqamətdə beynəlxalq tərəfdaşlarla birgə mübadilələrə xüsusi önəm verir, dəmir yolunda müvafiq diaqnostikanın nəticələrini əks etdirən "Dayanıqlılıq hesabatı" hazırlayaraq təqdim edib. Eləcə də məqsədyönlü proqramlar çərçivəsində "yaşıl ekosistem"in qurulmasını gücləndirib. Bütün bunlar dəmir yolu nəqliyyatının enerji səmərəliliyində rolunu artırır, karbon emissiyalarında isə payını xeyli azaldır. Dəmiryol şəbəkəsinin 63 faizi elektrikləşdirilib və bərpaolunan enerjinin potensialından geniş istifadə edilib. 2023-cü ildən etibarən ADY enerji istehlakını 5, təbii qaz istehlakını 16, su sərfiyyatını 23, karbon emissiyasını isə 9 faiz azaltmağa nail olub. Hazırda bu nəqliyyat sektorunun respublika üzrə ümumi enerji istehlakında payı 0,12 faiz təşkil edir, istilik effekti yaradan qazların emissiyasının isə 0,5 faizdən az hissəsi bu sahənin payına düşür. Azərbaycanın dəmir yolu nəqliyyatının qlobal emissiyada payı 0,1 faizdir. Lakin qlobal iqlim alyansının fəal üzvü olan dövlətimiz öz nəqliyyat infrastrukturlarını "yaşıllaşdırır" və nəqliyyatın bütün seqmentlərində karbon emissiyalarını minimallaşdırmağa çalışır. Məhz bu strategiyaya əsasən, aşağı karbonlu neytral dəmir yolu nəqliyyat sisteminin qurulması hədəflənib. Dəmir yolu infrastrukturunun "yaşıl hədəf"lərə uyğun olaraq rəqəmsallaşdırılması, tamamilə elektronlaşdırılması əsas çağırışlardır. ADY-nin 2030-cu ilə qədər strategiyasında "yaşıl maliyyələşmə" imkanlarından istifadə etməklə dayanıqlılıq layihələrinin icrasının daha da sürətləndirilməsi və karbon emissiyasının tam minimallaşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, COP29 sessiyası çərçivəsində keçirilən digər panel iclaslarda və görüşlərdə də ölkəmizin strateji nəqliyyat, həmçinin dəmir yolu tranzitlərində mühüm rolu və mövqeyi vurğulanıb. Qırğızıstan, Özbəkistan, Türkmənistan, Gürcüstan, Türkiyə, Çin və digər ölkələrin təmsilçiləri ilə aparılan çoxsaylı diskussiyalarda beynəlxalq əməkdaşlığın artırılması, xüsusilə də Orta Dəhliz üzərində infrastrukturların əlaqələndirilməsi və rəqəmsal texnologiyaların tətbiqi yolu ilə səmərəliliyin yaxşılaşdırılması, təmiz ekoloji nəqliyyat şəbəkələrinin yaradılması məsələləri müzakirə olunub. Azərbaycanın strateji coğrafi mövqeyi və nəqliyyat-tranzit dəhlizlərinin şaxələndirilməsində xüsusi təşəbbüskarlığı yüksək qiymətləndirilərək Orta Dəhlizin "yaşıl dəhlizə" çevrilməsi istiqamətində atdığı addımların əhəmiyyəti diqqətə çatdırılıb.

Xarici maliyyə institutları da Azərbaycana "yaşıl dəmir yolu" seqmentində dəstək vermək niyyətindədir. Məsələn, Asiya İnkişaf Bankının (AİB) nəqliyyat sektoru ofis sektorları qrupunun direktoru Ceymi Lezer bildirib ki, bank Azərbaycana dəmir yolu sahəsində müasir texnologiyaların tətbiqində dəstək olacaq.

Hazırda Azərbaycanın dəmir yolu sektorunda dekarbonizasiya ilə bağlı təşəbbüslərə qoşulan Asiya Bankı ötən ay COP29 ərəfəsində keçirilən görüşlərdə "Gələcək üçün dayanıqlı nəqliyyat" proqramı üzrə ölkəmizlə əməkdaşlığa dair memorandum imzalayıb. Sənəd nəqliyyat sisteminin ekoloji tələbatlara uyğunlaşdırılması, dəmir yolunun enerji səmərəliliyinin artırılması və "yaşıl nəqliyyat" sahələrində yeni baxışları əks etdirir. Bu anlaşmaya əsasən, AİB "Şimal-Cənub" və Orta Dəhliz çərçivəsində dəmir yolu sektorunda infrastrukturların rəqəmsallaşdırılmasında və "yaşıl tranzit" prinsiplərinin tətbiqində ölkəmizə zəruri maliyyə dəstəyi göstərəcək. "Yaşıl hədəf"lərə uyğun olaraq infrastrukturların rəqəmsallaşdırılması və elektronlaşdırılması qarşıda duran əsas vəzifələrdir. ADY-nin 2030-cu ilə qədər strategiyasında "yaşıl maliyyələşmə" imkanlarından istifadə etməklə karbon emissiyasının tam minimallaşdırılması nəzərdə tutulur.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2024.- 5 dekabr (№ 268).-